

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 165 (23.327)

*5 sentyabr 2019-cu il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası təhsil işçilərinin konfransı keçirilib



*“Gənclik” Mərkəzində keçirilən Naxçıvan Muxtar Respublikası təhsil işçilərinin sentyabr konfransını giriş sözü ilə Təhsil naziri Rəhman Məmmədov açaraq təhsilə göstərilən dövlət qayğısından və qarşıda duran vəzifələrdən danışıb.*

Qeyd olunub ki, muxtar respublikamızda təhsilin inkişafı sahəsində ardıcıl tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində təhsil müəssisələrinin maddi-tədris bazası möhkəmləndirilir. Ötən dövr ərzində muxtar respublikamızda 200-dən çox təhsil müəssisəsi tikilib və ya əsaslı şəkildə yenidən qurulub. Əvvəlki illərdə olduğu kimi, 2019-cu ildə də tikinti-quruculuq işlərində əsas yeri təhsil sahəsi tutub. Təkcə 2019-cu ilin birinci yarım ili ərzində 1170 şagird yerlik 2 ümumtəhsil məktəbi üçün binalar tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib. Hazırda bu sahədə işlər davam etdirilir.

Vurğulanıb ki, muxtar respublikada müəllim nüfuzunun artırılması, təhsil işçilərinin fəaliyyətinin stimullaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər davamlı xarakter alıb, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamlarına əsasən bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin həftəlik dərs yükü 1,5, vəzifə maaşı 2 dəfə, cari il sentyabrın 1-dən isə bu kateqoriyadan olan müəllimlərin aylıq vəzifə maaşları əlavə olaraq orta hesabla 20 faiz artırılıb. Bununla yanaşı, 2018-2019-cu tədris ilində 6 müəllim Azərbaycan Respublikasının, 17 müəllim isə Naxçıvan Muxtar Respublikasının “Əməkdar müəllimi” fəxri adlarına layiq görülüb, 4 müəllim “Tərəqqi” medalı ilə mükafatlandırılıb. Bununla yanaşı, Ali Məclis Sədrinin 2019-cu il 24 iyun tarixli Sərəncamı ilə istedadı ilə seçilən şagirdlərdən 3-nün adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının “Qızıl kitabı”na yazılıb, onlar Ali Məclis Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülüblər.

Təhsil naziri qeyd edib ki, ötən tədris ilində yaradılan şəraitdən səmərəli istifadə olunması diqqətdə saxlanılıb, müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması üçün təlimlər, konfranslar təşkil edilib, onların işə qəbulu prosesində şəffaflıq və obyektivlik təmin olunub.

İstedadlı şagirdlərin üzə çıxarılması istiqamətində də fəaliyyət gücləndirilib, fənn olimpiadalarının keçirilməsi diqqətdə saxlanılıb. “Mütaliə aylığı”, “Tariximizi qoruyaq və yaşadaq” aksiyası, “Dram” müsabiqəsi, kitab təqdimatları, intellektual oyunlar, idman yarışları keçirilib.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili, elmi dərəcəli müəllimlər tərəfindən ümumtəhsil məktəblərində nümunəvi dərslərin keçilməsi şagirdlərin biliklərinin artırılmasında, vətənpərvərlik və milli-mənəvi dəyərlərə sadiqlik ruhunda tərbiyə olunmasında, qabaqcıl təcrübənin öyrənilməsi və informasiya texnologiyalarından istifadə bacarıqlarının artırılmasında, buraxılış və qəbul imtahanlarında yüksək nəticələrin əldə edilməsində mühüm rol oynayıb.

“Muxtar respublikada təhsilin inkişafı üçün yaradılan şəraitin nəticəsidir ki, bu il ali və orta ixtisas təhsili müəssisələrinə sənəd verən 2569 məzundan 1922-si, yaxud 70 faizi tələbə adını qazanıb. Onlardan 281-i 500-700 arası bal toplayıb”, – deyən Rəhman Məmmədov diqqətə çatdırıb ki, 2018-2019-cu tədris ilində məzunlardan 13-ü “Qızıl”, 16-sı “Gümüş” medallara, 45-i isə fərqlənmə attestatına layiq görülüb. 25 şagird respublika fənn olimpiadasının qalibi olub.

Təhsil naziri ümumtəhsil müəssisələrinin fəaliyyətindəki nöqsanlardan da danışaraq bildirib ki, tədris prosesindən səmərəli istifadə edən, şagirdlərin bilik səviyyəsinin daim yüksəldilməsinə çalışan pedaqoji kollektivlərlə yanaşı, tədrisin keyfiyyətinə lazımi şəkildə nəzarət etməyən bəzi məktəblər də vardır.

Qeyd olunub ki, 2019-2020-ci tədris ilində mövcud nöqsanlar qısa müddətdə aradan qaldırılmalı, dərs bölgüsünün aparılması zamanı varislik prinsipi gözlənilməli, tədris ili ərzində məktəb direktorları tərəfindən tələb olunan sayda dərs dinləmələri aparılmalı, açıq və nümunəvi dərslər, fənlər üzrə müzakirələr təşkil edilməli, müəllimlərə metodik köməklik göstərilməli, sinif komplektləri mövcud qanunvericiliyə uyğun olaraq formalaşdırılmalıdır. Dərslərdə əyani vəsaitlərdən, elektron lövhə, kompüter və laboratoriyaların imkanlarından səmərəli istifadə olunmalıdır. Gənc müəllimlərlə aparılan işin keyfiyyəti artırılmalı, metodik kabinetlərin fəaliyyəti gücləndirilməli, şagirdlərin məktəbəhazırlıq qruplarına və I siniflərə qəbulu zamanı mövcud qaydalara əməl edilməlidir.

Məruzə ətrafında müzakirələrdə Naxçıvan Şəhər və Culfa Rayon Təhsil şöbələrinin müdirləri Elşən Qəbulov və Mehdixan Əliyevin, Naxçıvan Dövlət Texniki Kollecinin direktoru Asəf Ruşanovun, Naxçıvan Qızlar Liseyinin direktoru Aidə Allahverdiyevanın, Naxçıvan Peşə Liseyinin direktoru Vüsal Abdullayevin və Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin direktoru Murad Babayevin çıxışları dinlənilib. Konfransın qərarı qəbul edilib.

Sonda Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsi tərəfindən hazırlanan “Naxçıvan təhsili: inkişaf və perspektivlər” filminə baxış olub.

Konfrans sentyabrın 5-də şəhər və rayonlarda bölmə iclasları ilə davam edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*Ölkəmizin iqtisadi sahədə qazandığı nailiyyətlər əhalinin maddi rifah halının daha da yaxşılaşmasını təmin etməklə bərabər, sosial müdafiə tədbirlərinin əhatə dairəsinin genişlənməsi üçün də əlverişli şərait yaradır.*

## Minimum əməkhaqqı artımı məcburi dövlət sosial sığorta haqlarına da əsaslı təsir göstərəcək



Əməkhaqqı, pensiya, sosial müavinət və təqaüdlərin istehlak tələbinə uyğun artırılması, mütəmadi olaraq əhalinin real gəlirlərinin bazar səviyyəsinə uyğunlaşdırılması, aztəminatlı insanların, fiziki qüsurlu şəxslərin, şəhid ailələri və veteranların sosial müdafiəsinin təmini, sosial sığorta qaydalarının və pensiya sisteminin təkmilləşdirilməsi sahəsində atılan addımlar həyata keçirilən sosial siyasətin əhəmiyyətini daha da artırır. Vətəndaşların rifah səviyyəsinin yüksəldilməsi istiqamətində görülən tədbirlərin davamı olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2019-cu il 18 iyun tarixli sərəncamlarına əsasən sentyabrın 1-dən ölkəmizdə minimum aylıq əməkhaqqı 40 faizədək artırılaraq 180 manatdan 250 manata çatdırılıb, həmçinin dövlət sektorunda çalışanların əməkhaqları 20-50 faiz artımlar edilib. Beləliklə, cari ilin əvvəli ilə müqayisədə Azərbaycanda minimum əməkhaqqı məbləğinin 92,3 faiz artırılmasına, eyni zamanda bu məbləğin yaşayış minimumunu 40 faiz üstələməsinə nail olunub.

Minimum əməkhaqqının artımı əhali gəlirlərinin artımına səbəb olmaqla, əmək bazarındakı proseslərə də müsbət təsir edir. Xüsusilə işçi qüvvəsinin rəqabət qabiliyyətinin artmasını, digər tərəfdən əməyin leqallaşdırılmasını stimullaşdırır. Bütün bunlar, öz növbəsində, vətəndaşların pensiya hüquqlarının yaranmasına imkan verən məcburi dövlət sosial sığorta haqlarının həcminə də müəyyən təsir göstərir. Hazırda qüvvədə olan “Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununa əsasən bəzi sahələrdə fəaliyyət göstərən şəxslərdən məcburi dövlət sosial sığorta haqlarının tutulması minimum əməkhaqqının səviyyəsi ilə tənzimlənir. Belə ki, ticarət və tikinti sahələrində sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər ölkə üzrə müəyyən olunmuş minimum aylıq əməkhaqqının 50 faizi məbləğinin Naxçıvan şəhərində 80 faizi, yəni 100 manat, rayon mərkəzlərində və qəsəbələrdə 60 faizi, yəni 75 manat, kənd yerlərində isə 50 faizi, yəni 62 manat 50 qəpik miqdarında məcburi dövlət sosial sığortahaqqı ödəməlidirlər. Digər sahələrdə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər isə ölkə üzrə müəyyən edilmiş minimum aylıq əməkhaqqının 20 faizinin 80 faizi, yəni 40 manat, rayon mərkəzlərində və qəsəbələrdə 60 faizi, yəni 30 manat, kənd yerlərində isə 50 faizi, yəni 25 manat miqdarında məcburi dövlət sosial sığortahaqqı ödəməlidirlər.

Mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslərin (digər sahələrdə işləyib məcburi dövlət sosial sığortahaqqı ödəyənlər istisna olmaqla) və ailə kəndli təsərrüfatlarının əmək qabiliyyətli ailə üzvlərinin hər biri üçün isə (alınan əmlak və torpaq payı hesabına şəxsi yardımçı və digər təsərrüfatlar daxil olmaqla) minimum aylıq əməkhaqqının 6 faizi miqdarında, yəni 15 manat həcmində ödəniş edilməlidir.

Qeyd etmək lazımdır ki, bu gün ödənilən hər manat məcburi dövlət sosial sığortahaqqı gələcəkdə vətəndaşlara yüksək pensiya ödənişinin əsas təminatçısıdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu***

## Rabitə xidmətinin səviyyəsi yüksəldilir

Muxtar respublika əhalisinə göstərilən rabitə xidmətinin səviyyəsini yüksəltmək məqsədilə həyata keçirilən tədbirlər cari ilin ötən dövrü ərzində də davam etdirilib. Belə ki, muxtar respublikada yeni nəsil texnologiyaların tətbiqi ilə əlaqədar nəzərdə tutulan 5 mərhələdən ibarət layihənin sonuncu mərhələsi üzrə işlər tamamlanmaqdadır. Culfa rayonunu əhatə edən bu layihə üzrə artıq mövcud 21 Daewoo və Kareltipli avtomat telefon stansiyaları demontaj olunaraq yeni nəsil avtomat telefon stansiyaları ilə əvəz olunub, 5 stansiya tələbat olan açıq ərazilərdə montaj edilib. Ümumilikdə, bu layihə ilə Culfa rayonu ərazisində 28 yeni nəsil telefon stansiyasının istifadəyə verilməsi nəzərdə tutulur. Bundan əlavə, rayonun Əbrəqunus və Ərəfsə məntəqələri arasında çəkilən 28 kilometr uzunluğunda 48 lifli yeraltı fiber-optik kabel xəttinin tikintisi başa çatdırılıb. Hazırda avtomat telefon stansiyaların bu xətt üzərində qurulan 10 GB/s-lik telekommunikasiya sisteminə inteqrasiya edilməsi həyata keçirilir. Yeni fiber-optik kabel xətti üzərində qurulan telekommunikasiya sisteminin və Əbrəqunus, Göydərə, Qazançı paylayıcı qovşaqlarının istifadəyə verilməsi, 18 yeni nəsil telefon stansiyasını, Naxtelin 6 baza stansiyasını, bu ərazilərdə yerləşən orta ümumtəhsil məktəblərini və digər qurumları yüksəksürətli arabağlantı və internet kanalları ilə təmin edəcəkdir.

Həmçinin 5-ci mərhələnin icrası ilə bağlı Çin Xalq Respublikasının “Huawei” şirkəti ilə bağlanmış müqavilədə Naxçıvan-Qıvraq-İbadullah-Sədərək, Duzdağ-Şahbuz, Naxçıvan-Əbrəqunus və Culfa-Əbrəqunus istiqamətlərində alternativliyi təmin edən İP bazalı çox protokollu kommutasiya sisteminin qurulması nəzərdə tutulur. Bunlardan Duzdağ-Şahbuz arası radiorele, digərləri isə optik kabel xətləri üzərindən təmin ediləcəkdir.

Həyata keçirilən səmərəli tədbirlər 4-cü nəsil Naxtel abunəçilərinin say artımına da real zəmin yaradıb. Hazırda Naxtel istifadəçilərinin sayı 80 mini ötüb. Onun maddi-texniki bazasının möhkəmləndirilməsi və təqdim edilən mobil xidmətlərin keyfiyyətinin artırılması məqsədilə 5 yeni baza stansiyası və ehtiyat məlumat hesablama sistemi alınıb. Hazırda baza stansiyaların və məlumat hesablama sisteminin quraşdırma-tənzimləmə işləri həyata keçirilir.

Bəhs olunan dövrdə internet xidmətlərinə artan tələbat nəzərə alınaraq həm “Türk Telekom” istiqamətindən, həm də “Delta Telekom” istiqamətindən daxil olan internet trafiki 1 Gb/s artırılıb, nəticədə, muxtar respublikaya daxil olan internet kanallarının həcmi 10 Gb/s-yə çatdırılıb. Görülən tədbirlər nəticəsində bu ilin ilk 6 ayı ərzində simli şəbəkə üzrə 2827 abunəçi asinxron internet bağlantısı ilə təmin edilib. “Evədək optika” layihəsi çərçivəsində isə 23 fərdi mənzilə fiber-optik kabel xətti çəkilib və gigabit passiv optik şəbəkə avadanlığı quraşdırılıb. Bundan əlavə, muxtar respublika üzrə mövcud avtomat telefon stansiyaların montaj tutumları hesabına bəhs olunan dövrdə 1028 yeni telefon nömrəsi istismara verilib. 2019-cu ilin birinci yarısında muxtar respublika ərazisində, ümumilikdə, 45 min 475 metr fiber-optik kabel xətlərinin tikintisi həyata keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “2018-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında 2018-ci il 2 mart tarixli Sərəncamının icrası ilə əlaqədar Rabitə və Yeni Texnologiyalar Nazirliyinin dəstəyi ilə Dövlət Statistika Komitəsi üçün hazırlanan “Statistik Məlumatlar Sistemi” bu il iyun ayının 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə istismara verilib.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

# Cari ildə qarğıdalı əkini sahələri 1004 hektar təşkil edib

## *Torpaq mülkiyyətçiləri artıq bu sahəyə daha çox maraq göstərirlər*

*Taxıllar fəsiləsinə aid olan qarğıdalı birillik dənli bitkidir. Vətəni Mərkəzi və Cənubi Amerika sayılır. İlk vaxtlar o az tapılan bəzək bitkisi kimi tanınsa da, çox keçmədən Fransa, İtaliya və Portuqaliyada geniş yayılaraq qiymətli ərzaq və yem bitkisi kimi istifadə olunub. XVI əsrdə onun yayılma arealı genişlənərək Şimali Afrika, Hindistan və Çinə gedib çıxıb. Rusiyaya isə XVII əsrdə gətirilib, oradan da Azərbaycana yayılıb. Bu gün qarğıdalı dünyada əkilən dənli bitkilər arasında buğdadan sonra ikinci yeri tutur.*



Qarğıdalının xalq təsərrüfatında istifadə imkanları genişdir. Məsələn, onun dənələrindən şirə çəkir, şəkər, yağ, spirt istehsal edirlər. Bu bitki həm də yeyinti sənayesində geniş tətbiq olunur: ondan un, yarma və nişasta hazırlayır, nişastadan isə qənnadı sənayesində istifadə edilir.

Qarğıdalının tibbi əhəmiyyəti də vardır. XIX əsrin ikinci yarısında bu bitkinin saçaqlarının ödqovucu xüsusiyyətə malik olduğu müəyyən edilib. Hazırda isə ondan qaraciyər və öd kisəsinin iltihabında, habelə böyrəkdə daş olan hallarda müalicə məqsədilə istifadə edirlər. Xalq arasında qarğıdalının qovurub partladılmış şəklə salaraq yeyilməsi də qədimdən məlumdur. Elə bu təsərrüfat əhəmiyyətindən irəli gəlir ki, dən üçün əkilən bu bitkinin ümumi becərildiyi ərazi dünyada 130 milyon hektardan çoxdur. Qarğıdalı əkininə bu qədər yer verilməsinin səbəbi odur ki, bu bitki həm ərzaq məhsulu kimi, həm sənaye əhəmiyyətinə görə, həm də heyvandarlıqda faydalı yem istehsalı üçün böyük əhəmiyyət daşıyır. Eyni zamanda qarğıdalının tropik iqlimə malik ölkələrdən tutmuş yağıntının miqdarı çox olan şimal ölkələrinədək əkilə bilməsi bu qiymətli bitkinin daha geniş ərazilərdə yayılmasına imkan verir.



Qeyd edək ki, qarğıdalı bərk, dişə bənzər, nişastalı, partlayan, şəkərli, nişastalı-şəkərli, yarımdiş, mumabənzər və pərdəli kimi botaniki qruplara bölünsə də, ölkəmizdə, əsasən, bərk qarğıdalı sortunun əkilməsinə üstünlük verilir. Bir kiloqram quru dəndə 1,34 yem vahidi və 78 qram həzmolunan protein vardır. Buna görə də onun dənindən qarışıq yem istehsalında istifadə olunur. Bu bitkidən, eyni zamanda çox keyfiyyətli silos alınır. Onun yaşıl gövdəsi heyvandarlıqda şirəli yem kimi çox faydalıdır.

Qeyd edək ki, son illərdə muxtar respublikamızda da bu qiymətli bitkinin əkilməsinə maraq xeyli artıb. Bunun da bir sıra səbəbləri var. İlk növbədə, muxtar respublikanın iqlimi bu bitkinin əkilib-becərilməsinə əlverişli imkan yaradır. Mütəxəssislərin bildirdiyinə görə, qarğıdalı nisbətən quraqlığa dözümlü bitkidir. Bir sentner quru kütlə əmələ gətirmək üçün 20-30 ton su tələb edir ki, bu da vələmir və arpaya nisbətən azdır. Lakin yüksək məhsul almaq üçün o, daha çox su tələb edir. İnkişafın ilk mərhələsində hektara suyun orta sutkalıq sərfi 30-40 kubmetr, süpürgələmədən mum yetişməsinə qədər olan dövrdə isə 80-100 kubmetrə çatır. Ona görə də qarğıdalıdan 35-40 sentner dən məhsulu və ya 350-400 sentner yaşıl kütlə almaq üçün yay aylarında yağıntının miqdarı 260-300 millimetr olmalı, yaxud da suvarılmalıdır. Digər tərəfdən qarğıdalı quşçuluq təsərrüfatlarında əvəzolunmaz yem sayılır. Çünki tərkibində proteinin faizi yüksək olduğuna görə qarğıdalı yumurta istehsalında mühüm rol oynayır. Buna görə də həm maldarlığın, həm də quşçuluğun ilbəil inkişaf etdirilməsi bu bitkiyə olan tələbatı durmadan artırır. Eyni zamanda muxtar respublikada digər kənd təsərrüfatı bitkiləri kimi, qarğıdalının da əkilib-becərilməsi üçün indi münbit şərait yaradılıb, bunun üçün müxtəlif texnikalar alınıb gətirilib. Yaradılmış şərait, heyvandarlıq və quşçuluq təsərrüfatlarının genişləndirilməsi ildən-ilə bu qiymətli bitkinin də əkilməsinə marağı artırıb. Statistikaya nəzər salsaq, görərik ki, 10 il bundan əvvəl – 2009-cu ildə muxtar respublikamızda dən üçün əkilən bu bitkinin əkin sahəsi 723,6 hektara bərabər olub və sahələrdən 2865,4 ton məhsul yığılıb. 2012-ci ildə isə dən üçün qarğıdalı əkini sahəsi 845 hektara çatdırılaraq həmin sahələrdən 3382 ton məhsul tədarük edilib. 2017-ci ildə 1667 hektar sahədən yığılan 12572,9 ton qarğıdalı 2016-cı illə müqayisədə 20,2 faiz çox olub. Ötən il isə bu məhsulun əkini 1174 hektar sahədə aparılıb. Tədarük olunan məhsul 10 min 524 ton olub. Cari ildə isə qarğıdalı əkini sahələri 1004 hektar təşkil edib və bu sahələrin 717 hektarı Şərur rayonunun payına düşür.

Bu rəqəmlər onun göstəricisidir ki, qarğıdalı əkini artıq yerli torpaq mülkiyyətçiləri tərəfindən ən çox maraq göstərilən əkinçilik sahələrindəndir. Əvvəlki illərdə qazanılmış təcrübə, torpaq mülkiyyətçiləri üçün yeni imkanların yaradılması və tədarük məntəqələrində qarğıdalının bir kiloqramının 40 qəpikdən alınması bu məhsula olan marağı daha da artırıb. Artıq muxtar respublikada biçin kampaniyasına başlanılıb. Bu məqsədlə əvvəlcədən lazımi aqrotexniki tədbirlərin həyata keçirilməsi, texnikaların saz vəziyyətə gətirilməsi məhsulun itkisiz və vaxtında yığılmasına imkan verəcək. Zəmilərə yaxşı aqrotexniki qulluq göstərilməsi isə bu il də bol məhsul əldə olunacağından xəbər verir.

✍ **Səbuhi HƏSƏNOV**

# Bakı və Naxçıvan arası sərnişin avtobuslarının xidmətlərindən istifadə artır

Muxtar respublikamızda əhalinin artan tələbatları arasında sərnişin nəqliyyatı mühüm yer tutur. Xüsusən blokada ucbatından ölkəmizin paytaxtı Bakı şəhəri ilə nəqliyyat əlaqələrinin qaydaya salınması ilə istər muxtar respublika sakinləri, istərsə də buraya səyahət edən turistlər daha çox bu nəqliyyat növündən istifadə edirlər. Mövsümi olaraq əhalinin hər iki istiqamətdə hərəkətinin artdığı dövrlərdə avtobus reyslərinin artırılması pik günlərdə sərnişin sıxlığı problemini, demək olar ki, həll edib.



Ötən günlərdə Bakı-Naxçıvan və Naxçıvan-Bakı istiqamətində hərəkət edən avtobusların xidmətlərindən xeyli sayda sərnişin istifadə edib. Bu barədə Naxçıvan Şəhər Avtovağzalından aldığımız məlumatda bildirilir ki, təkcə cari ilin avqust ayı ərzində Naxçıvandan Bakıya getmək üçün avtobus nəqliyyatından istifadə edənlərin sayı 4 min nəfərə yaxın olub. Belə ki, ayrı-ayrı günlərdə gündüz və gecə reysləri üzrə 5-6 avtobus yola çıxıb. Aldığımız məlumatda o da qeyd olunur ki, bu müddətdə əks-istiqamətdə də eyni intensivlik müşahidə edilib. Sərnişinlər arasında, xüsusən vaxt itkisinin qarşısının alınması üçün gecə saatlarında yola çıxmaq istəyənlərin sayı daha çoxdur. Naxçıvan Şəhər Avtovağzalından başqa muxtar respublikamızın Şərur, Culfa, Ordubad və Şahbuz şəhərlərindəki avtovağzallarda da bilet satışının təşkili sərnişinlərin bu nəqliyyat vasitəsindən istifadəsinə əlverişli şərait yaradıb. Bu yaxınlarda Naxçıvan Şəhər Avtovağzalında və eləcə də Bakı şəhərindəki beynəlxalq avtovağzalda gömrük nəzarəti xidmətinin təşkil olunması sərnişinlərin sərhəd-keçid məntəqələrində rahat hərəkət etmələrinə imkanlar yaradıb. Bu səbəbdən avtobuslarla yola çıxanlar arasında ortayaşlı insanlarla yanaşı, uşaqlar və yaşlıların da sayı artmaqdadır.

Naxçıvan Şəhər Avtovağzalında Bakıya yola düşən sərnişinlərin bəziləri ilə həmsöhbət olduğumuzda onlar təşkil olunmuş xidmətlərdən razılıqlarını dilə gətirdilər. Sərnişinlərdən Tahirə Hüseynəliyeva, Hidayət Məmmədov və digərləri rahat, təhlükəsiz və sərfəli olduğundan bu marşrutdan istifadəyə üstünlük verdiklərini bildirib insanların rahatlığı üçün yaradılmış şəraitə görə minnətdarlıq etdilər.

✍ **Əli CABBAROV**

# Maarifləndirici görüş keçirilib



Ordubad rayonunun Dəstə kəndində "Nağdsız ödəyək" adlı maarifləndirici görüş keçirilib. Tədbirdə nağdsız ödənişlərin məqsəd və mahiyyəti barədə iştirakçılara geniş məlumat verilib.

Qeyd olunub ki, nağdsız ödənişlər yolu ilə vətəndaşlar həm vaxtlarına qənaət etmiş olur, həm də hədiyyələr əldə etmək fürsəti qazanırlar. Belə ki, "Nağdsız ödəyin, hədiyyə qazanın!" adlı həvəsləndirici tədbirin on birinci tirajında məhz Ordubad rayonu üzrə 55 nəfər müxtəlif qiymətli hədiyyələr əldə ediblər.

Sonra tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb, onlara bukletlər paylanılıb.

**Abbas SEYİD**

*"Ailə təsərrüfatları ili" – 2019*

# Zəhmətlə yanaşı, dövlət dəstəyi də uğurların səbəbidir

*Yaşıl meşələri, axar çayları, buz bulaqları, füsunkar çəmənlikləri, bol-bərəkətli torpağı var yurdumun. Səhər-səhər şehli çiçəklərin, güllərin incə rayihəsi, qoyun-quzuların mələşməsi, hər fəsildə ayrı gözəlliyə sahib olan təbiəti, bara-bəhərə dolmuş bağları, göz işlədikcə uzanan bol məhsullu tarlaları kəndlərimizdə insanlara xoş ovqat bəxş edir, onları zəhmətə, işgüzarlığa, təsərrüfatla məşğul olmağa, daha çox əkib-becərməyə həvəsləndirir. Bu həvəslə səhərin sübh çağında iş üçün ayağa qalxan kəndli gündəlik işinə başlayır. Kimisi tarlasını suvarmağa, zəhmətlə becərdiyi məhsulu yığmağa, ot tədarük etməyə başlayır, kimisi də mal-qarasını otlaqlara aparır. Min bir zəhmətlə özlərinə gün-güzəran yaradan, dolanışığını lazımınca təmin edən kəndlinin hər günü, beləcə, öz axarında davam edir.*



Bu işdə kəndliyə böyük stimul verən isə muxtar respublikada kənd təsərrüfatının, eləcə də onun aparıcı sahələrindən olan heyvandarlığın inkişafının daim diqqət mərkəzində saxlanılmasıdır.

Son illər heyvandarlıqla məşğul olan təsərrüfat subyektlərinə maliyyə dəstəyinin gücləndirilməsi, məhsuldar cins mal-qaranın alınıb gətirilməsi, süni mayalandırmanın tətbiqi, qarışıq yem istehsalı müəssisələrinin fəaliyyətə başlaması, təbii yem və otlaq sahələrinin su təminatının yaxşılaşdırılması, həmçinin qəbul olunmuş dövlət proqramlarında nəzərdə tutulan vəzifələrin icrası heyvandarlığın inkişafına öz təsirini göstərib. Dövlət dəstəyi nəticəsində süni mayalanma yolu ilə doğulmuş hər baş buzova görə 100 manat həcmində subsidiyanın müəyyən olunması yüksək məhsuldarlığı olan heyvanların baş sayının və heyvandarlıq məhsulları istehsalının artırılmasına şərait yaradıb. Bu isə kənd təsərrüfatı məhsulları istehsalçılarının bu sahəyə marağının artmasına səbəb olub.

Əlverişli şəraitdən yararlanaraq istehsal etdikləri məhsulları ilə alıcı rəğbəti və etimadını qazanan, öz fəaliyyətini günün tələbləri səviyyəsində qurmağa səy göstərən təsərrüfat adamlarından biri də Babək rayonunun Çeşməbasar kənd sakini Asif Qasımovdur.

20 başdan artıq iribuynuzlu mal-qara saxladığını söyləyən Asif Qasımovla söhbət zamanı öyrəndim ki, o, 15 ildən artıq bir müddətdə təsərrüfatla məşğuldur. Onun dediklərindən:

– Heyvandarlıq xüsusi zəhmət tələb edən kənd təsərrüfatı sahələrindən olsa da, gün-güzəranımı bu işin hesabına qurmuşam. Sovetlər dönəmində kənd təsərrüfatı ilə məşğul olan bütün təsərrüfat adamları çətinliklərlə üzləşirdilər. Çünki özlərinə aid bir mal-qara və yaxud torpaq sahəsi yox idi. Ölkəmiz müstəqillik əldə etdikdən sonra öz torpağımızın sahibi olduq. İndi, şükür Allaha, bizə qayğı göstərən dövlətimiz sağ olsun, torpağımızı istədiyimiz kimi əkib-becərir, bol məhsul əldə edirik. Bu gün zəhmətlə, işgüzarlıqla hər şeyə nail olmaq mümkündür. Dövlətimiz tərəfindən zəhmətsevər insanlara verilən dəstək bizi öz təsərrüfatımızı daha da genişləndirməyə həvəsləndirir.

25 xırdabuynuzlu heyvan da saxladığını söyləyən müsahibim qeyd edir ki, otlaq sahələrimizdə otlayan heyvanlarımızın əti də, ağartı məhsulları da dadlı və keyfiyyətli olur. Ailə təsərrüfatçısı kimi, mən də Naxçıvanda keçirilən yarmarka və festivallarda iştirak edərək istehsal etdiyim məhsulları satıb yaxşı gəlir əldə edə bilirəm.

Süd məhsullarına olan tələbatın çox olduğunu deyən təsərrüfat adamı söylədi ki, istehsal etdiyim süd, qatıq və pendiri Naxçıvan şəhərində yaradılan ailə təsərrüfatı məhsulları mağazasına, rayonlarımızdakı dükanlara verirəm. Bununla öz dolanışığımı təmin etməklə yanaşı, süd və süd məhsullarına olan tələbatın ödənilməsinə də öz töhfəmizi verməyə çalışırıq.

Asif Qasımov onu da deyir ki, təsərrüfat adamına boş dayanmaq yaraşmaz. Nə qədər gücün çatır, bir o qədər çox işlə məşğul olmalısan. Mən heyvandarlıqla yanaşı, həm də uzun illərdir ki, əkinçiliklə məşğulam. Bu il 9 hektar sahədə buğda, arpa əkmişdim, məhsul da ürəyimcə oldu. Bundan əlavə, heyvanlara tədarük üçün 3 hektardan artıq ərazidə yonca, satış üçün tərəvəz və bostan bitkiləri də becərirəm.

Builki məhsul bolluğundan razılıq edən təsərrüfatçı onu da qeyd etdi ki, payızlıq əkinlər də aparmışam. Xiyar, pomidor, badımcan kimi bostan və tərəvəz bitkilərinə tələbat daha çoxdur.

Gələcək planlarından da danışan təsərrüfatçı bildirdi ki, dövlətimiz tərəfindən ailə təsərrüfatçılarına verilən güzəştli kreditdən götürmək istəyir. Bunun hesabına yeni, daha geniş tövlə tikməklə mal-qarasını artırmaq fikri var.

Süni mayalanma yolu ilə artıq bir neçə baş buzovunun doğulduğunu bildirən təsərrüfatçı bu yolla doğulan hər buzova görə dövlətimiz tərəfindən 100 manat subsidiyanın verilməsindən də razılıq etdi. Göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirdi.

Bəli, bu gün hər bir kəndli göstərilən dövlət dəstəyini öz üzərində hiss etdikcə daha çox zəhmətə qatlaşır, əkib-becərdiyi torpağına sıx tellərlə bağlanır. Yaradılmış şəraitdən layiqincə istifadə edən belə təsərrüfat sahibləri öz təsərrüfatlarını daha da genişləndirirlər.

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Xalq yazıçısı Hüseyn İbrahimovun anadan olmasının 100 illik yubileyinin keçirilməsi haqqında 2019-cu il 18 may tarixli Sərəncamında deyilir:* ***“Hüseyn İbrahimov yarım əsrdən artıq bir dövrü əhatə edən səmərəli ədəbi fəaliyyəti ilə müasir Azərbaycan ədəbiyyatının inkişafına töhfələr vermiş özünəməxsus yaradıcılıq üslubuna malik simalardandır. Ədibin uğurlu axtarışlarının nəticəsi kimi müxtəlif janrlarda meydana gətirdiyi əsərlərdə müasirlərimizin zəngin mənəvi aləmi dolğun əks etdirilmiş, mədəniyyət tariximizin yetirdiyi bir çox görkəmli simaların işıqlı obrazları parlaq bədii boyalarla təcəssümünü tapmışdır”.*** *Sərəncamda da qeyd olunduğu kimi, Naxçıvan ədəbi mühitinin görkəmli yetirməsi olan Xalq yazıçısı Hüseyn İbrahimovun (1919-1992) çoxəsrlik Azərbaycan ədəbiyyatının zənginləşməsində mühüm xidmətləri olmuşdur. Onun, xüsusilə Azərbaycan bədii nəsrinin inkişafındakı rolu danılmazdır. Tanınmış yazıçının geniş və əhatəli yaradıcılığının təşkil edən çoxsaylı qiymətli əsərləri Vətənə, xalqa, el-obaya bağlılıq və məhəbbət ruhu əxz etmək baxımından qiymətlidir.*

*Hüseyn İbrahimov – 100*

# Nəcib insanlar sorağında



Xalq yazıçısı Hüseyn İbrahimov əsərləri ilə həm də milli ədəbiyyatımızın ideya-estetik və məzmunca zənginləşməsində mühüm xidmətlər göstərib. O, 1919-cu il mayın 23-də “sahib-mənsəb ziyalılar yurdu” kimi tanınan qədim Şahtaxtı kəndində dünyaya göz açıb. Görkəmli Xalq yazıçısı geniş və əhatəli bir yaradıcılığa malikdir. Yaradıcılığa şeirlə başlasa da, hətta iki pyesi teatr səhnəsində tamaşaya qoyulsa da, o, özünü ədəbiyyat sahəsində görkəmli nasir kimi təsdiq edib. Onun ədəbi irsinə məxsus 100-ə yaxın hekayə, 20-dən çox novella, 8 povest, 3 pyes, 5 roman yazıçının bədii yaradıcılıq sahəsindəki uğurlarını nümayiş etdirir. Hüseyn İbrahimovun çoxşaxəli yaradıcılığındakı “Bahar yağışı”, “Sabahın sorağında”, “Əsrin onda biri”, “Böhtan”, “Nəciblik”, “Kənd həsrəti” və başqa əsərləri böyük əhəmiyyətə malikdir. Xalq yazıçısının ədəbi aləmdə nüfuz qazanmasında yaradıcılığının ilk illərində yazdığı “Bahar yağışı” və “Sabahın sorağında” əsərlərinin rolu böyükdür. Əbəs deyil ki, akademik İsa Həbibbəyli yazıçını ədəbi tənqiddə “Bahar yağışı”ndan çıxan sənətkar” kimi də təqdim edir.

Ədibi müharibə dövrünün yazıçısı da adlandırmaq olar. 1944-cü ildə, yəni müharibə dövründə ədəbiyyata şeirlə gələn Hüseyn İbrahimov “O qoymadı düşməndə anasının qanını” şeiri, “Məzar daşına yazılan yazı”, “Senanın göz yaşları”, “Qorxmaz kapitan” və digər əsərləri ilə müharibənin gətirdiyi və yaşatdığı problemləri əks etdirib. O, bir yazıçı olaraq təkcə müharibə kimi dəhşətli bir hadisənin qanlı döyüş səhnələrini əks etdirməyib, daha çox insanların qəlb dünyası və ruhunda yaşanan hissi-psixoloji “savaşı” təqdim etməyə çalışıb. Onun üçün insan əbədi və əzəli bədii məqsəddir. Buna görə də o, məharətlə müharibə dövrünün dəhşətlərindən insan talelərinə, həyatlarına enib, məhz bu ömür dünyalarında baş verən prosesləri diqqət mərkəzinə gətirib. Onun yaradıcılığında ailə mövzusu, ailə problemi çox əhəmiyyətli yer tutur. Hüseyn İbrahimov müharibə mövzulu əsərlərində məhz ailələrin yaşadığı dəhşətləri göstərməyi məqsədəuyğun bilib. Onun təbirincə, müharibəni udan da, uduzan da insan deyil, ailələrdir. Bu mənada, onun döyüşçüləri məhz ailə kontekstində öz yerini tapır, bir döyüşçünün döyüş, mübarizə, savaş yolu onun ailə həyatında təzahür etdirilir. Hər bir döyüşən əsgərin qəhrəmanlıq və rəşadətinin arxasında məhz ailə məhəbbəti və onun həsrəti dayanır. Onun əsərlərində əsgərlər Vətənin azadlığını və ailə xoşbəxtliyinin qorunması üçün düşmən qarşısında sərhəd dirəyi kimi dikilirlər. “Ata məhəbbəti” hekayəsində də yazıçı bir döyüşçünün ailəsini və hələ doğulmamış körpəsinə olan məhəbbətini əks etdirir. Doğulmamış körpəsinin şəklini fəhmlə yaradan Bahadır hamını heyran qoyur. Onun “İnam”, “Şirin xatirə”, “Zərifənin çiçəkləri”, “Sakit axşamlar” və digər əsərlərində də vətənpərvərlik ruhu, dərin məna vardır.

Yazıçı cəmiyyət quruculuğu, sülh və əmin-amanlıq dövründə də insan taleləri ilə ailə talelərini paralel, qoşa qanad olaraq təqdim edir. Əmək, sadəlik, nəciblik onun təsvir və təqdim etdiyi qəhrəmanların əsl simasıdır. Ümumiyyətlə, bu keyfiyyətlər yazıçının insanda görmək istədiyi ən ali keyfiyyətlərdir. “Qoca və dəniz”, “Nazbalış”, “Göyərçinin məhəbbəti”, “Baharın hekayəsi”, “Səhv edəndə” kimi əsərlər insan talelərinin təsviri ilə bərabər, xarakterlərin təqdimi baxımından da diqqətəlayiqdir. Hüseyn İbrahimovun qəhrəmanları əməksevər, vətənpərvər, sədaqətli və vəfalı, bağışlayan və qayğıkeş olmaları etibarilə də xarakterik və mənən zəngindirlər. Fərrux kişi əməksevərliyi (“Qoca və dəniz”), Kərim əmi təbiətcanlılığı (“Kərim əmi”), Nazlı nənə ailəcanlılığı (“Nazbalış”), Vahid müəllim insansevərliyi (“Səhv edəndə”) məharətlə təcəssüm etdirir. Yazıçı “Səhv edəndə” əsəri ilə cəmiyyəti yol verdikləri səhvə görə insanları bağışlamağa, onları yeni, doğru bir həyat yaşamağa, bir-birlərinə qayğı göstərməyə səsləyir.

Hüseyn İbrahimovun əsərlərinin bir özünəməxsusluğu da vardır: doğulub boya-başa çatdığı Naxçıvanı bütün varlığı ilə əks etdirmək və bu vəsilə ilə də bütöv Vətənini tərənnüm və təsvir etmək. Onun ucaltdığı qəhrəmanı da, tənqidə məruz qoyduğu mənfi xarakterli tipləri də, məhəbbətini, sədaqət və vəfasını öydüyü, əməksevərliyini, vətənpərvərliyini, qayğıkeşliyini təqdim etdiyi insanlar da gözəlliyini, təravətini, tarixini, mədəniyyətini tərənnüm və vəsf etdiyi doğma Naxçıvanla bağlıdır.

Bu qədim diyarın yetişdirdiyi görkəmli memar Əcəmi Əbubəkr oğlunun taleyi və sənətindən bəhs edən “Əsrin onda biri” romanı isə tarixi mövzuda yazılan qiymətli əsər kimi bədii nəsrimizdə xüsusi yer tutmaqdadır. Həmin əsərin əsas ideya-bədii dəyəri ondan ibarətdir ki, əgər bu möhtəşəm abidənin sifarişinin səbəbi Atabəy Eldənizin ömür-gün yoldaşı Möminə xatına olan sonsuz məhəbbət və tükənməz vəfasıdırsa, abidənin sənət möhtəşəmliyinin sirrində isə Əcəminin elə, torpağa bağlılığı, sənətə vəfası dayanır. Müəllifin “Əsrin onda biri” adlandırdığı bir dövrdə Naxçıvanın inkişaf və intibahının kökündə el, oba, yurd sevgisi, Vətənə, elinə, xalqına məhəbbət bəsləyən qeyrətli insanların nəcib fəaliyyətləri yer alır.

Böyük Azərbaycan şairi Hüseyn Cavidin ağrılı-acılı ömür yoluna həsr olunan “Böhtan” əsərində həm də çalxalanan və mürəkkəb, ziddiyyətli, psixoloji gərgin bir tarixi mərhələ əks olunur, dahi şairin yaradıcılıq taleyindən fəxarətlə bəhs edilir. Hüseyn Cavidin şəxsiyyət əzəməti təkcə onun şair, sənətkar qüdrəti ilə müəyyənləşmir, daha çox xalqına göstərdiyi xidmət və Vətəninə bəslədiyi məhəbbətlə ortalığa çıxır, özünə əsl əzəmət, möhtəşəmlik qazanır. Çünki bu qüdrətli söz ustadı şair olmaqla bərabər, həm də ləyaqətli və əzmkar xalq müəllimi, nəhəng bir pedaqoqdur. Hüseyn Cavidin xalqına istiqlal düşüncəsi, maarif, mədəniyyət aşılaması kimi misilsiz xidmətləri əsərin ideya mövzularından birini təşkil edir. Elə ulu öndər Heydər Əliyevin Hüseyn Cavidin əzəmət dolu şəxsiyyətinə və qiymətli yaradıcılığına bəslədiyi ehtiram və məhəbbətin kökündə də məhz dahi liderin xalqına və Vətəninə sonsuz məhəbbəti dayanır.

Hüseyn İbrahimovun konkret olaraq ayrı-ayrı mövzulara həsr olunan əsərlərində yer alan hər bir müsbət qəhrəmanın arzusunda, əməllərində yurd sevgisi, Vətən məhəbbəti qabarıq şəkildə öz əksini tapır. Göyərçinin vəfa və sədaqətində (“Göyərçinin məhəbbəti”), uzaq torpaqlarda döyüşüb yaralanan Vahidin dözüm və qəhrəmanlığında (“İnam”), Yelmar Zərgərlinin insanlığı, təmizliyi və halallığında (“Təmiz adam”), Səbirənin səbir, dözüm və iradəsində (“Xəcalət”), Musa müəllimin məhəbbət və vəfasında (“Köhnə onluq”), Şadiyyənin vəfa və qayğıkeşliyində (“Qadın nəfəsi”), Sənəmin əfsanələşmiş məhəbbətində (“Qızlar bulağı”), Nazlı nənənin kənd həsrətində (“Nazbalış”), Yazgülün qəhrəmanlığı və vəfalılığında (“Şirin xatirə”) məhz yurd sevgisi, xalqa, Vətənə bağlılıq kimi ali insani keyfiyyətlər tərənnüm olunur.

Xalq yazıçısının “Kənd həsrəti” hekayəsi isə bilavasitə yurd sevgisinin ən uca zirvəsi və ən layiqli nümunəsini təşkil edir. Qoşqar Çinarlının uzun illər doğulub, boya-başa çatdığı doğma Kosalı kəndindən uzaq düşməsi onun qəlbində, ruhunda bir yurd nigarançılığı formalaşdırır. Yaşadığı xoşbəxt, firavan və rahat həyat şəraitinə, bütün şüurunu mənimsəmiş elmi fəaliyyət və vaxtını alan beynəlxalq konfranslara baxmayaraq, qəlbinin dərinliyində sızıltılı bir kənd həsrəti onu narahat etməyə başlayır. Bir televiziya kanalından doğma Kosalı kəndindən göstərilən qısa bir süjet isə onu daha da kədərləndirir, bu həsrətə atəşli bir od vurur. Təkliyə qapılan bu yaşlı professoru uşaqlıq xatirələri, keçmiş həyatı ağuşuna alır, ömür-gün yoldaşı Mehri yadına düşür, xəyalən onunla danışır, ata-anasını xatırlayır və artıq keçmişə dönmüş bu xatirələr qoca professoru özü ilə aparır; övladları otağa daxil olub ona baş çəkəndə isə bu qocaman atadan, sadəcə, vəsiyyət ifadə edən bir parça kağız qalmışdı: “Məni Kosalıda dəfn edin”.

Onun əsərlərində xüsusi məhəbbətlə və bir az da həsrətlə təsvir olunan Kosalı kəndi elə yazıçının doğma kəndi olan Şahtaxtının bədii əksidir. Müxtəlif əsərlərində tez-tez adına rast gəlinən müsbət qəhrəman, əzəmətli insan obrazını canlandıran Vahid müəllimi isə ədibin prototipi hesab etmək olar. Bu görkəmli yazıçı insanda hər zaman nəciblik axtardığı kimi öz yaradıcılığı, həyatı və fəaliyyəti boyunca da nəcabətini ləyaqətlə qorumuş, nəcibliyin keşiyində dayanmışdır. Yazıçının “Nəciblik” əsərində təsvir etdiyi hadisələrdən çıxan dərs insanın yaşadığı həyat boyunca nəcib davranmasına çağırışdır. Xalq yazıçısının yaradıcılığına çox yüksək dəyər verən görkəmli akademik İsa Həbibbəyli bu barədə yazır: *“Yazıçı hekayələrindən yalnız birini “Nəciblik” adlandırsa da, əslində, bütün yaradıcılığı boyu nəcib insani dəyərləri qələmə almış, yarım əsrdən çox nəcibliyin keşiyində dayanmışdır. “Nəciblik” Hüseyn İbrahimovun təkcə hekayəsinin adı deyil, özünün də yaradıcılıq portreti və mənəvi pasportudur”.*

Hüseyn İbrahimovun məhəbbət ruhlu əsərləri içərisində xüsusi yeri ilə seçilən “Qızlar bulağı” hekayəsində Naxçıvanı əfsanələr yurdu kimi təmsil edən Qızlar bulağından bəhs olunur. Bu bulaq özü haqqında rəvayətlərlə adını əfsanələşdirmiş, yazıçı Hüseyn İbrahimovun məharətli qələmi və zəngin intuisiyası ilə sanki yenidən qələmə alınmışdır. Onun məhəbbət mövzulu əsərlərində əzəmətli bir eşq, ilahi bir məhəbbət öz yerini tapır. “Göyərçinin məhəbbəti”, “Şirin xatirə”, “Qadın nəfəsi”, “Qu quşları öləndən sonra oxuyur”, “Baharın hekayəsi”, “Qızlar bulağı” və başqa əsərlərində məhz təmiz, saf məhəbbətin tərənnümü, sədaqət və vəfa dolu sevginin qələbəsi insana nəcib duyğular bəxş edir. Onun əsərlərində vəsf və tərənnüm olunan məhəbbət sadəliyi, saflığı, təmizliyi ilə sevilir.

Xalq yazıçısı Hüseyn İbrahimov böyük ustadı Cəlil Məmmədquluzadədən təsirlənərək bir sıra satirik-yumoristik əsərlər də yazıb. “Yeddinci meyit”, “Nəciblik”, “Zırrama”, “Eyvazovun salamı”, “Day lazım olmadı” və digər əsərlər yeni həyatdakı köhnəlikləri, gerilikləri tənqid və ifşa baxımından çox əhəmiyyətlidir. O, insanların nəcabətinə kölgə salan keyfiyyətləri qırmanclayaraq mənəvi zənginlik və ali keyfiyyətlər əxz etdirir. Tənqidçi Qulu Xəlilovun təsdiq etdiyi kimi: *“Təmizliyə çağırış, insanlarda saflıq və gözəllik hisslərini istiqamətləndirmək, dövrümüzün mühüm əxlaqi problemləri, insan ləyaqətinə kölgə salan hər cür əyriliyə xəlqi mövqedən atəş açmaq Hüseyn İbrahimovun yaradıcılığının əsas pafosunu təşkil edir”.*

Şahin Səfərov haqlı olaraq qeyd edib ki, “Hüseyn İbrahimov düşünən və düşündürən yazıçıdır”. Yaradıcılığında doğma Naxçıvan aləmindən dünyaya boylansa da, Xalq yazıçısı, Süleyman Rəhimovun dediyi kimi: “*Hüseyn İbrahimovun yaradıcılığı məhəlli ölçü istəmir... O, bütöv Azərbaycan yazıçısıdır”*.

Bəli, həyatının əlli ildən artıq bir dövründə bədii yaradıcılıqla məşğul olan Xalq yazıçısı Hüseyn İbrahimovun əsərləri gənc nəslin əxlaqi-mənəvi tərbiyəsi üçün çox əhəmiyyətlidir. Onun bu zəngin yaradıcılığını yüksək dəyərləndirən ulu öndər Heydər Əliyev demişdir: ***“...Yaradıcılığınızın bəhrəsi olan ədəbi əsərləriniz oxucularınızın ideya-mənəvi tərbiyəsində böyük əhəmiyyət kəsb etmiş, gənclərə saf duyğular, bəşəri hisslər aşılamış, müdrik ziyalı mövqeyiniz Sizə hörmət gətirmişdir”.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun “Xalq yazıçısı Hüseyn İbrahimovun 100 illik yubileyinin keçirilməsi haqqında” 2019-cu il 13 may tarixli Sərəncamında deyilir: ***“Xalq yazıçısının tarixi keçmişimizdən bəhs edən əsərləri oxucular tərəfindən həmişə rəğbətlə qarşılanmış, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsində əhəmiyyətli rol oynamışdır”.***

Vətəninə, torpağına bağlı olan, xalqa dərin məhəbbət bəsləyən Xalq yazıçısı Hüseyn İbrahimovun gələcəyə səslənərək dediyi: *“Ey insanlar, bu yurd da, onun üstündəki abidələr də sizə bir ata-baba amanatı...”* kimi dəyərli, müdrik sözlər neçə illər gənc nəsillərin qulağında əks-səda verərək onlara el, oba, yurd cavabdehliyi və vətənpərvərlik ruhu, tərbiyəsi aşılayacaqdır. Eləcə də qoca bir çinar ömrünü xatırladan Xalq yazıçısının zəngin söz sərvəti, müdriklik əxz edən qiymətli əsərləri illərcə insani dəyərlərin və nəcibliyin əhatəsində qol-qanad açaraq onun keşiyində dayanacaqdır.

**Ramiz QASIMOV**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

*Oxunması zəruri olan kitablar gənclərin gözü ilə*

## Moris Meterlinkin “Göy quş” əsəri müdrik və ibrətamiz duyğular aşılayır




“Oxunması zəruri olan kitabların Siyahısı”na daxil olan dünya ədəbiyyatı nümunələrindən olan Moris Meterlinkin fransız dilində yazılmış “Göy quş” əsəri 1911-ci ildə Nobel mükafatına layiq görülmüşdür. Bu əsər 6 pərdə, 12 şəkildən ibarətdir.

Əsərdə oduncunun oğlu Tiltil və Mitil qonşuluqdakı xəstə qıza əlac etmək üçün Milad bayramı gecəsi sehrli göy quşun axtarışına çıxırlar. Bu zaman onlar dünyadan çoxdan köçmüş nənə-babalarının, eləcə də ağacların, heyvanların, işığın və gecənin ruhları ilə qarşılaşırlar. Sonra bacı və qardaş yuxudan oyanaraq öz dünyalarına qayıdırlar. Onlar başa düşürlər ki, hər bir insanın xoşbəxtliyi onun qəlbindəki sevgi və xeyirxahlıqdır. Əgər xoşbəxt olmaq istəyirsənsə, ətrafındakılara qarşı xeyirxah olmağı bacarmalısan.

Bu əsər onu oxuyanlara, o cümlədən şəxsən mənə müdrik və ibrətamiz duyğular aşıladı. Artıq mən hər şeyin – yağan yağışın, yaşıl təbiətin, mavi səmanın, valideynlərimin və müəllimlərimin mənə, mənim də onlara olan hörmət və sevgimin xoşbəxtlik olduğunu anlayıram. Hər an özümü xoşbəxt hesab edirəm.

Bütün məktəb yoldaşlarıma bu əsəri oxumağı, həyata nikbin yanaşmağı tövsiyə edirəm.

**Özləm QASIMOVA**
*Sədərək kənd 1 nömrəli tam orta məktəbin XI sinif şagirdi*

# Polis əməkdaşları arasında voleybol birinciliyi keçirilib

***Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları arasında voleybol üzrə birincilik keçirilib.***

Nazirliyin idman cəmiyyətinin zalında keçirilən yarışda 14 komandanın 122 idmançısı mübarizə aparıb. İki gün davam edən birinciliyin həlledici qarşılaşmasında Daxili Qoşunların komandası ilə Şərur Rayon Polis Şöbəsinin komandası üz-üzə gəlib. İlk seti 28:26 hesablı qələbə ilə başa vuran Şərur təmsilçisi sonrakı setlərdə bu uğuru təkrarlaya bilməyib. Növbəti iki setdə qalib gələn Daxili Qoşunların (25:20, 25:13) komandası birinciliyin baş mükafatını qazanıb. Üçüncü yer uğrunda keçirilən görüşdə isə Daxili İşlər Nazirliyinin komandası Dövlət Yol Polisi komandasını məğlub edib – 2:0.



Birinciliyin bağlanış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikasının Daxili İşlər naziri, general-leytenant Fazil Ələkbərov bildirib ki, muxtar respublikamızda idman siyasəti Ali Məclisin Sədri cənab Vasif Talıbov tərəfindən uğurla həyata keçirilir. Naxçıvanda idmanın kütləviliyinə nail olmaq, xüsusilə uşaq və gəncləri idmana cəlb etmək üçün müasir idman infrastrukturu yaradılıb. Muxtar respublikada idman və gənclər siyasətinin uğurla həyata keçirilməsi nəticəsində şəhər və rayonlarımızda müasir standartlara cavab verən, hər cür şəraiti olan idman kompleksləri, stadionlar, zallar tikilərək idmançıların istifadəsinə verilib. İdman sahəsində reallaşdırılan uğurlu dövlət siyasətinin və yaradılan şəraitin məntiqi nəticəsidir ki, bu gün muxtar respublikamız mötəbər idman turnirlərinin, müxtəlif beynəlxalq və ölkə səviyyəli yarışların keçirildiyi məkana çevrilib.

General-leytenant Fazil Ələkbərov qeyd edib ki, muxtar respublikada vətəndaşlara, o cümlədən dövlət orqanlarının əməkdaşlarına göstərilən qayğının tərkib hissəsi olaraq polis əməkdaşlarının fiziki inkişafına və onlar üçün idman məşğələlərinin keçirilməsinə xüsusi diqqət yetirilir. Polis əməkdaşları arasında vaxtaşırı idman yarışları keçirilir, qalib idmançılar mükafatlandırılır.

Bildirilib ki, birinciliyin keçirilməsində məqsəd polis əməkdaşları arasında fiziki gücü, dözümlülüyü inkişaf etdirməklə ölkə birinciliyində çıxış edəcək heyət formalaşdırmaqdır.

Daxili İşlər naziri yarışda uğur qazanan polis əməkdaşlarını təbrik edib, onlara uğurlar arzulayıb.

Sonda qalib komandalar mükafatlandırılıblar.

✍ **Ceyhun MƏMMƏDOV**

# “Əcdadların Mirası” layihəsinin iştirakçıları:

## *“Naxçıvan qədim tarixi, zəngin mədəniyyəti və ecazkar təbiəti ilə seçilən bir məkandır”*

***Ölkəmizin tarix və mədəniyyətinin gənclər arasında təbliği məqsədilə Azərbaycan Respublikasının Gənclər Fondunun və İctimai Televiziya və Radio Yayımları Şirkətinin birgə təşkilatçılığı ilə keçirilən ilk əyləncəli-etnoqrafik layihə olan “Əcdadların mirası” adlı ölkəmiqyaslı milli “kvest” yarışması davam edir. Yarışma çərçivəsində ölkəmizin müxtəlif regionlarından seçilmiş 18-29 yaş arası gənclərdən ibarət 4 komanda tarix, mədəniyyət, adət-ənənələr və təbiətimizlə bağlı məntiq və bilik mübarizəsinə qatılır, mürəkkəb tapşırıqlarda güc və dözümlülüklərini sınağa çəkirlər. Yarışma 6 mərhələdən ibarətdir və hər mərhələnin Azərbaycanın fərqli bölgəsində təşkil edilməsi nəzərdə tutulub. Növbəti mərhələ isə 2-4 sentyabr tarixlərində Naxçıvan Muxtar Respublikasında keçirilib. Burada 3 yarış təşkil olunub. Batabat gölü ətrafında fiziki, Əlincəqala və Duzdağ Fizioterapiya Mərkəzində əqli, “Saat Meydanı” turistik istirahət mərkəzində isə Ordubad qayğanağının hazırlanması üzrə bacarıq yarışı keçirilib.***



Layihə çərçivəsində tarixi bölgələrdə və turizm obyektlərində də çəkilişlər aparılıb. Yarışmanın əsas çəkilişləri Batabat yaylağında, Əlincəqalada, Duzdağ Fizioterapiya Mərkəzində və “Saat Meydanı” turistik istirahət mərkəzində təşkil olunub. Əlavə çəkilişlər isə Qarabağlar Türbə Kompleksi, Haçadağ, Xanəgah Abidə Kompleksi, Möminə xatın məqbərəsi, Xan Sarayı, Hüseyn Cavidin məqbərəsi, Qazançı körpüsü, İmamzadə Kompleksi, Nuh Peyğəmbərin məzarüstü türbəsi, “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi və Uzunoba gölündə aparılıb. Yarışların təşkili məqsədilə Azərbaycan Respublikasının Gənclər Fondu, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqından nümayəndə heyəti də Naxçıvana gəlib.

Məlumat üçün bildirək ki, yarışmada mübarizə aparan 16 gəncdən ikisi Naxçıvanı təmsil edir. Həmin gənclər Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər ixtisasının məzunu Aslan Səfərov və bu ali məktəbin Mühasibat uçotu və audit ixtisasının III kurs tələbəsi Səkinə Şərifovadır.

Layihədə iştirak edən gənclərdən bir neçəsi “Şərq qapısı” qəzetinə müsahibələrində yarışmanın məqsəd və mahiyyəti barədə danışıblar:

***Nərmin NİZAM – Milli Aviasiya Akademiyasının III kurs tələbəsi:*** – Layihə çərçivəsində Naxçıvana gəlişimiz mənim üçün olduqca əlamətdardır. Çünki mən Bakı şəhərini təmsil etməyimə baxmayaraq, Babək rayonunun Cəhri kəndində dünyaya göz açmışam. Naxçıvanı görmək, buranın tarixi-mədəni abidələri, təbiət guşələri ilə tanış olmaq zövqvericidir. Əlincəqalanın möhtəşəm görünüşünü seyr edərkən Teymurləngin 14 il həsrətini çəkdiyi bu abidənin necə dəyər daşıdığı bir daha ortaya çıxmış olur. Qədim diyarda ucalan möhtəşəm abidələr tarixən bu elin, obanın insanlarının necə vətənsevər, yurdsevər olduğunu gözlər önünə sərir. Xalqımızın ulu keçmişini əks etdirən tarixi miraslar mənimlə birgə bu torpağa ayaq basan digər gənclərin də böyük marağına səbəb oldu, getdiyimiz hər məkanda Naxçıvanı tanıyan biri kimi məndən bu diyar haqqında məlumat öyrənmələrinə sevindim və böyük qürur hissi keçirdim.



***Elmar RZALI – Qazax Rayon Gənclərin İnkişaf və Karyera Mərkəzinin əməkdaşı:*** – İlk olaraq onu deyim ki, layihənin keçirilməsi biz gənclər üçün hərtərəfli önəm daşıyır. Necə deyərlər, həm əylənir, həm də öyrənirik. Naxçıvanda olduğumuz qısa zaman ərzində buranın tarixi, mədəniyyəti barədə geniş məlumat əldə edə bildik. “Saat Meydanı” turistik istirahət mərkəzində keçirilən mətbəx yarışında biz qədim torpağın süfrə mədəniyyəti, buraya məxsus yeməklərin hazırlanma qaydaları barədə öyrəndik. Yeri gəlmişkən qeyd edim ki, adını çəkdiyim turistik məkan olduqca cəlbedici idi, qısa səyahət zamanı burada gənclərin asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şəraitin olduğunu gördüm.



Xatırladım ki, Naxçıvana mən ötən ilin noyabr, dekabr aylarında gənclər üçün təşkil olunan qış düşərgəsi ilə bağlı gəlmişdim və o zaman hava şəraiti ilə əlaqədar Əlincəqalaya qalxmaq nəsib olmamışdı. Sevinirəm ki, tarix kitablarından oxuyarkən qürur hissi keçirdiyim bu qədim abidəni indi öz gözlərimlə görə bilirəm. Burada olduğum zaman əcdadlarımızın öz torpağını qorumaq üçün necə mübarizlik, əzmkarlıq göstərdiyinin bir daha şahidi oldum. Həqiqətən, biz gənclər fəxr etməliyik ki, belə şanlı keçmişimiz, yurdunu canından üstün tutan məğrur ulu babalarımız olub. Abidəyə qalxdıqca yolboyu insanların rahat hərəkətini təmin edən infrastrukturun qurulması da tarixi keçmişə verilən böyük önəmdən xəbər verir. Qalanın zirvəsinə gedən yolda qarşıma çıxan bir guşədə həkk olunan “Tarixi yaşadanları tarix də yaşadacaqdır” sözləri diqqətimi çəkdi. Həqiqətən də, belə bir çətin coğrafi vəziyyətdə, sıldırım qayaların qənşərində yerləşən bir abidənin gözoxşayan səviyyədə bərpası təqdirəlayiqdir və elə yazılan sözlərin doğruluğunu da bir daha təsdiqləyir. Fürsətdən istifadə edib layihənin təşkilində əməyi keçənlərə, eləcə də bizi bu qədim torpaqda qarşılayan, hər cür xidmətlə əhatə edənlərə öz dərin minnətdarlığımı bildirirəm.



***Aysel MƏMMƏDOVA – Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşı:*** – Çox sevinirəm ki, bu layihədə iştirak etmək üçün seçilən 16 gənc arasında mənim də adım vardır. Naxçıvan səfərimiz olduqca maraqlı və əyləncəli keçdi, burada bizi qonaqpərvərliklə qarşıladılar. Layihə çərçivəsində biz Batabatda da olduq, oranın ecazkar təbiəti məni heyran etdi. İşimə uyğun olduğu üçün deyə bilərəm ki, Şahbuz Dövlət Təbiət Qoruğunda ölkəmiz üçün nadir sayılan flora və fauna növləri vardır və təbii sərvətlərimizin belə yüksək səviyyədə mühafizə edilməsi təqdirəlayiq haldır.

Onu da qeyd edim ki, bu, mənim Naxçıvana ikinci səfərimdir, ilk dəfə cari ilin iyul ayında “Heydər Əliyev siyasi məktəbini öyrənirik” Gənc Liderlər Proqramı çərçivəsində Naxçıvana gəlmişdim. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun proqram iştirakçıları ilə görüş zamanı etdiyi çıxışda ümummilli liderin siyasi fəaliyyəti, Onun ideyalarının muxtar respublikada da uğurla davam etdirildiyi barədə zəngin məlumat almışdım. Səfər zamanı biz Duzdağ Fizioterapiya Mərkəzində də olduq. Səhiyyə ocağının ecazkar quruluşu, orada yaradılan müasir şərait bizdə xoş təəssüratlar yaratdı. Fikrimcə, Duzdağ kimi möcüzəvi məkanın özünəməxsus cəhətlərini təbliğ etmək, dünyaya tanıtmaq biz gənclərin üzərinə düşən mənəvi borcdur.

Biz Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyini də ziyarət etdik, burada nadir eksponatlarla tanış olduq. Ulu öndərin xatirə əşyaları böyük marağımıza səbəb oldu.



***Səkinə ŞƏRİFOVA – Naxçıvan Dövlət Universitetinin Mühasibat uçotu və audit ixtisası üzrə III kurs tələbəsi:*** – Layihə çərçivəsində biz müxtəlif intellektual və əyləncəli oyunlara qatılırıq. Belə ki, oyunlar çərçivəsində “Hava”, “Od”, “Su” və “Torpaq” olmaqla, dörd komandaya bölünmüşük. Mən “Torpaq” komandasında çıxış edirəm və topladığımız xalları növbəti seçim mərhələlərində də artıraraq qələbə qazanmaq niyyətindəyik. Xüsusilə qeyd edim ki, Naxçıvan Muxtar Respublikasından iki nəfər bu layihədə iştirak edirik və çalışacağıq ki, keçirilən yarışlarda müsbət nəticə göstərək və doğma diyarımızın özünəməxsus mədəniyyətini, adət-ənənələrini ölkəmizin digər bölgələrində də geniş şəkildə təbliğ edək.

Xüsusilə vurğulamaq istərdim ki, Naxçıvanda istər təhsil sahəsində, istərsə də həyatın digər istiqamətlərində gənclərin öz potensialını üzə çıxarmaları üçün geniş imkanlar var. Bunu mənimlə birgə buraya üz tutan gənclər də bir daha təsdiqlədilər. Qədim abidələrimizin mükəmməl şəkildə bərpası, təbiət ərazilərimizin qorunması hər kəsdə böyük maraq yaratdı.

Yaxın vaxtlarda ölkəmizin digər bölgələrini də gəzib-görmək fürsətimiz olacaq. İnanıram ki, əldə etdiyimiz biliklər, topladığımız məlumatlar gələcəkdə də çox köməyimizə çatacaq.

✍ **Nail ƏSGƏROV**

# Arxeoloji tədqiqatlara başlanılıb



Azərbaycan-Fransa birgə arxeoloji ekspedisiyası Babək rayonunun Sirab kəndindəki qədim yaşayış yerlərində tədqiqatlara başlayıb.

Sirab ərazisində aparılan arxeoloji tədqiqatların əsas məqsədi qədim yaşayış yerlərində yaşayışın davamlılığı, Eneolit mədəniyyətləri arasındakı əlaqəni öyrənmək və bu mədəniyyətlərin inkişaf ardıcıllığını dəqiqləşdirməkdən ibarətdir.

Qeyd edək ki, arxeoloji ekspedisiya əvvəlcə muxtar respublikanın dağlıq ərazilərində kəşfiyyat xarakterli araşdırmalar aparıb. “Uçan ağıl” yaşayış yerində aparılan qazıntılar isə qədimdə insanların yaxınlıqda mövcud olan yaşayış yerləri ilə əlaqələrini müəyyənləşdirməyi nəzərdə tutub.

“Uçan ağıl” qədim yaşayış yerində aparılan arxeoloji tədqiqatlar nəticəsində mövsümi yaşayış binalarının qalıqları, müxtəlif formalı keramika nümunələri, dən daşları, daş və sümük alətlər aşkar edilib. Qazıntı sahəsində aşkar olunan nümunələrə əsaslanan tədqiqatçılar burada yaşayışın uzun müddət davam etdiyini bildirirlər.

Sirab ərazisində aparılan araşdırmalar burada qədim dövrlərdən insanların məskunlaşmasından xəbər verir. Tədqiqatlar zamanı yaşayış yerlərindən zəngin maddi-mədəniyyət nümunələrinin, eyni zamanda mis filizinin qalıqlarına rastlanması qədim insanların xammal ehtiyatlarından istifadə etdiyini göstərir. Yaşayış yerində tədqiqat işləri davam etdirilir.

**Xəbərlər şöbəsi**

## *İtmişdir*

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Kazımov Əli Rəhim oğlunun adına olan hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

* * *

Şirəliyev Sahib Yusif oğlunun adına olan hərbi bilet itdiyindən etibarsız sayılır.

* * *

Fəridə Abbas Tahir qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, “İstiqlal” küçəsi, bina 123, mənzil 1-də yaşayan Axundova Evgülü Bayram qızının adına olan 5908 inventar nömrəli texniki pasport və MH-0032977 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Şahtaxtinski küçəsi, ev 26-da qeydiyyatda olan Qarayev Əli Ərrəhman oğlunun adına olan 3348 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 593